# AZƏRBAYCAN KİTABXANALARINDA İNFRASTRUKTURUN GÜCLƏNDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

***Püstə Səməddin qızı Əhmədova***

*Filologiya üzrə fəlsəfə doktoru*
*Naxçıvan Dövlət Universiteti*
*pusteehmedova@yahoo.com*
*https://orcid id: 0009-0005-7857-4359*

***Açar sözlər:*** *Azərbaycan, kitabxana, Heydər Əliyev, milli-mənəvi dəyər, qayğı*
***Ключевые слова:*** *Азербайджан, библиотека, Гейдар Алиев, национально-нравственная ценность, забота*
***Keywords:*** *Azerbaijan, library, Heydar Aliyev, national-moral value, care*

**Xülasə:** Azərbaycanın böyük şəxsiyyəti Ulu öndər Heydər Əliyev müstəqilliyin ilk illərindən başlayaraq kitabxanaların təkmilləşdirilməsinə xüsusi diqqət yetirmişdir. Onun rəhbərliyi dövründə kitabxana sistemində böyük dəyişikliklər baş vermiş, bu sahə ilə bağlı müasir yanaşmalar və texnologiyalar tətbiq olunmuşdur. Ulu öndər kitabxanaların yalnız mədəniyyətin qorunması və inkişafı deyil, həm də gələcək nəsillərin təhsil və bilik əldə etməsi üçün böyük rol oynadığını hər zaman vurğulamışdır. Azərbaycanın mədəniyyət və təhsil sahəsinin inkişafı, xüsusilə kitabxanaların müasir tələblərə uyğunlaşdırılması Ulu öndər Heydər Əliyevin mədəniyyət siyasətinin ayrılmaz bir hissəsi olmuşdur. Heydər Əliyev Azərbaycanın müstəqillik əldə etdikdən sonra kitabxana infrastrukturunun yenidən qurulması və gücləndirilməsi sahəsində mühüm addımlar atmış, kitabxanaların milli və beynəlxalq səviyyədə daha effektli fəaliyyət göstərməsi üçün çoxsaylı islahatlar həyata keçirmişdir. Bundan başqa Heydər Əliyev beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişlənməsinə də önəm vermiş, Azərbaycanda keçirilən beynəlxalq kitabxana konfransları, simpoziumları və seminarları dəstəkləmişdir. Bu tədbirlər sayəsində Azərbaycan kitabxanaları dünya kitabxana ictimaiyyəti ilə daha sıx əlaqəyə girmiş və yeni inkişaf imkanları əldə etmişdir.

**Резюме:** Гейдар Алиев уделял особое внимание благоустройству библиотек еще с первых лет независимости Азербайджана. За время его руководства в библиотечной системе произошли серьезные изменения, были внедрены современные подходы и технологии в этой сфере. Великий лидер всегда подчеркивал, что библиотеки играют важную роль не только в сохранении и развитии культуры, но и в образовании и познании будущих поколений. Развитие культурного и образовательного секторов Азербайджана, в особенности адаптация библиотек к современным требованиям, было неотъемлемой частью культурной политики великого лидера Гейдара Алиева. После обретения Азербайджаном независимости Гейдар Алиев предпринял важные шаги в области восстановления и укрепления библиотечной инфраструктуры и осуществил многочисленные реформы для обеспечения более эффективного функционирования библиотек на национальном и международном уровнях.

Кроме того, Гейдар Алиев придавал значение расширению сотрудничества с международными организациями и поддерживал проведение в Азербайджане международных библиотечных конференций, симпозиумов и семинаров. Благодаря этим мероприятиям азербайджанские библиотеки вошли в более тесный контакт с мировым библиотечным сообществом и получили новые возможности развития.

**Summary:** Heydar Aliyev paid special attention to the improvement of libraries from the first years of Azerbaijan's independence. During his leadership, major changes took place in the library system, and modern approaches and technologies were introduced in this area. The great leader always emphasized that libraries play an important role not only in the preservation and development of culture, but also

in the education and knowledge of future generations. The development of the cultural and educational sphere of Azerbaijan, especially the adaptation of libraries to modern requirements, was an integral part of the cultural policy of the Great Leader Heydar Aliyev.

After Azerbaijan gained independence, Heydar Aliyev took important steps in the field of reconstruction and strengthening of library infrastructure, and implemented numerous reforms to make libraries more effective at the national and international levels. In addition, Heydar Aliyev attached importance to expanding cooperation with international organizations and supported international library conferences, symposiums and seminars held in Azerbaijan. Thanks to these events, Azerbaijani libraries entered into closer contact with the world library community and gained new development opportunities.

**Giriş:** Ulu öndərimiz Azərbaycanın müstəqilliyinin ilk illərindən başlayaraq kitabxanaların təkmilləşdirilməsinə xüsusi diqqət yetirmişdir. Onun rəhbərliyi dövründə kitabxana sistemində böyük dəyişikliklər baş vermişdir. Azərbaycanın mədəniyyət və təhsil sahəsinin inkişafı, xüsusilə kitabxanaların müasir tələblərə uyğunlaşdırılması onun mədəniyyət siyasətinin ayrılmaz bir hissəsi olmuşdur. Heydər Əliyev Azərbaycanın müstəqillik əldə etdikdən sonra kitabxana infrastrukturunun yenidən qurulması və gücləndirilməsi sahəsində mühüm addımlar atmış, kitabxanaların milli və beynəlxalq səviyyədə daha effektli fəaliyyət göstərməsi üçün çoxsaylı islahatlar həyata keçirmişdir. Bundan başqa Heydər Əliyev beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişlənməsinə də önəm vermiş, Azərbaycanda keçirilən beynəlxalq kitabxana konfransları, simpoziumları və seminarları dəstəkləmişdir. Bu tədbirlər sayəsində Azərbaycan kitabxanaları dünya kitabxana ictimaiyyəti ilə daha sıx əlaqəyə girmiş və yeni inkişaf imkanları əldə etmişdir. Heydər Əliyevin Azərbaycan kitabxanalarına verdiyi diqqət və göstərdiyi qayğı ölkəmizin mədəniyyət və təhsil sisteminin inkişafında mühüm bir mərhələni təşkil edir. Onun təşəbbüsü ilə Azərbaycan kitabxanaları yalnız ənənəvi kitabxanalar kimi fəaliyyət göstərməyib, həm də müasir tələblərə uyğunlaşmış, informasiya texnologiyalarından istifadə edən və dünya miqyasında tanınan mədəniyyət mərkəzlərinə çevrilmişdir. Dahi şəhsiyyət Heydər Əliyevin bu sahədəki fəaliyyəti, ölkəmizin mədəniyyətinin və təhsilinin inkişafı üçün dəyərli bir mirasdır. Kitabxanaların gücləndirilməsi və müasir tələblərə uyğunlaşdırılması, gələcək nəsillərin daha yaxşı təhsil almasına və mədəniyyətlə zənginləşməsinə xidmət edir. Kitabxanalar hər bir xalqın milli-mədəni kimliyinin, tarixi yaddaşının və intellektual potensialının qorunub saxlandığı, inkişaf etdirildiyi əvəzsiz məkanlardır. Onlar yalnız kitabların saxlandığı binalar deyil, xalqın mənəvi irsini yaşadan, təbliğ edən və gələcək nəsillərə ötürən elm, bilik və mədəniyyət ocaqlarıdır. Tarix boyu maarifçilik hərəkatlarının, ictimai tərəqqinin və mədəni inkişafın ayrılmaz hissəsi olmuş kitabxanalar cəmiyyətin səviyyəsini müəyyən edən başlıca amillərdəndir.

**Əsas hissə.** Kitabxanalar hər bir xalqın intellektual inkişafında, mənəvi zənginliyinin qorunmasında və gələcək nəsillərin formalaşmasında mühüm rol oynayan mədəniyyət ocaqlarıdır. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev kitabxana işinin inkişafına və bu sahədə infrastrukturun möhkəmləndirilməsinə hər zaman xüsusi diqqət yetirmişdir.

Heydər Əliyev Azərbaycanda mədəniyyətin bütün sahələrinin inkişafını milli dövlət quruculuğunun ayrılmaz tərkib hissəsi hesab edirdi. Onun rəhbərliyi dövründə kitabxana işi təkcə mədəniyyət sahəsinin deyil, həm də təhsil və elmin əsas dayağı kimi inkişaf etdirilmişdir. O deyirdi: "Kitabxanalar xalqın mədəni səviyyəsinin göstəricisidir. Onların inkişafı milli tərəqqi ilə bilavasitə bağlıdır." 1970–1980-ci illərdə respublikada mərkəzləşdirilmiş kitabxana sistemlərinin yaradılması, şəhər və kəndlərdə kitabxana şəbəkəsinin genişləndirilməsi, kitabxana fondlarının zənginləşdirilməsi və ixtisaslı kadrların hazırlanması sahəsində bir çox mühüm tədbirlər görülmüşdür. Bu tədbirlər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən mədəniyyət siyasətinin uğurlu nəticəsi idi.

*Azərbaycan kitabxanalarının flaqmanı, milli mənəvi dəyərlərimizin etibarlı saxlanc yeri və tarixi yaddaşımız hesab olunan Milli Kitabxananın müasir dövrün tələblərinə uyğun inkişafı və yenidən*

*qurulması işlərinin bünövrəsi də 90-cı illərin ikinci yarısında Ulu öndərin rəhbərliyi altında, bilavasitə onun iştirakilə həyata keçirilmişdir(4. səh.25).*

Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkədə ümumi mədəni mühitin canlandırılması və bu mühitin əsas dayaqlarından biri olan kitabxanaların bərpası xüsusi önəm qazandı. Onun təşəbbüsü ilə yeni kitabxana binaları inşa edildi, mövcud binalar əsaslı təmir olunaraq müasir standartlara uyğunlaşdırıldı. Kitabxanalar kompüter və elektron avadanlıqlarla təchiz olunmağa başlandı. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi sürətləndirildi. Kitabxanaların elektron kataloq sistemləri qurulmağa başlandı, fondların elektronlaşdırılması istiqamətində layihələr reallaşdı. Xüsusilə Azərbaycan Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası və bir sıra regional kitabxanalar bu prosesin aparıcı mərkəzlərinə çevrildi. Kitabxana sahəsində infrastrukturun gücləndirilməsi üçün yalnız fiziki şəraitin deyil, həm də hüquqi bazanın yaradılması zəruri idi. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə 1998-ci ildən etibarən kitabxanalarla bağlı qanunlar hazırlanmasına başlanıldı. *1996-cı ildə Azərbaycanda "Kitabxana işi haqqında" qərar, 1998-ci ildə isə ölkəmizin tarixində ilk dəfə olaraq "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 29 dekabr 1998-ci ildə ölkə Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış və həmin gündən qüvvəyə minmiş Qanun, həmçinin "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 12 mart 1999-cu il tarixli Fərman qanunun ayrı-ayrı maddələrinin yerinə yetirilməsinə cavabdeh olan dövlət orqanlarını müəyyənləşdirmişdir.* Bu qanun ilə ilk dəfə olaraq kitabxana sahəsinin hüquqi əsasları müəyyənləşdirildi. *(3. səh.32).*

Heydər Əliyev xüsusilə Azərbaycan Milli Kitabxanası və AMEA-nın Mərkəzi Elmi Kitabxanası kimi elm və mədəniyyət ocaqlarının rolunu yüksək qiymətləndirirdi. Bu kitabxanaların fəaliyyəti ilə şəxsən maraqlanır, onların beynəlxalq əlaqələrinin genişləndirilməsi üçün təşəbbüslər göstərirdi. Ulu öndər gənc nəslin intellektual inkişafını, onların milli ruhda tərbiyəsini və təhsilini prioritet istiqamət hesab edirdi. Bu məqsədlə orta məktəb kitabxanalarının fondlarının zənginləşdirilməsi üçün dövlət səviyyəsində vəsait ayrıldı. Yeni uşaq kitabxanalarının yaradılması təşviq olundu. Kitabın, oxu mədəniyyətinin, bədii və elmi ədəbiyyatın gənclər arasında təbliği üçün genişmiqyaslı layihələr dəstəkləndi. Heydər Əliyev uşaqlarla görüşlərində kitab oxumağın zəruriliyini daim vurğulayırdı:

Heydər Əliyevin təşəbbüs və rəhbərliyi ilə kitabxana sahəsində həyata keçirilən islahatlar bu sahədə əsaslı dönüş yaratmış, Azərbaycanın kitabxana sistemi regionun ən inkişaf etmiş sistemlərindən birinə çevrilmişdir. Onun bu sahəyə verdiyi dəyər, formalaşdırdığı infrastruktur və hüquqi baza bu gün də aktual olaraq qalır və inkişaf etməkdə davam edir. *Kitabxanalar onun müəyyən etdiyi istiqamətdə – maarifləndirmə, milli dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi funksiyasını uğurla yerinə yetirir (1 səh.18).* Son illər kitabxana işi sahəsində kitab və mütaliəni cəmiyyət üzvləri arasında yaymaq üçün bir sıra yeni layihələr həyata keçirilir.

**Nəticə:** Bu gün də Ulu öndərin siyasi və mədəni irsinin davamı olaraq Azərbaycan təhsilində baş verən mütərəqqi proseslər, təhsil islahatları kitabxanalara olan maraqı daha da artmışdır. Mütəmadi olaraq kitabxanlarda dövlət, ədəbiyyat və incəsənət xadimlərinin əsərlərinin təqdimat mərasimlərinin keçirilməsinə xüsusi diqqət yetirmişdir ki, bu da kitabxanaların oxucularla əlaqəsini daha da möhkəmləndirmiş, yeni kitabların təbliği işini xeyli yaxşılaşdırmış, oxucuların fəallığına səbəb olmuşdur.

**Ədəbiyyat**


1. "Heydər Əliyev İli" və kitabxanalar: metodik tövsiyələr /tərt. - Bakı, 2023.- 56 s.
2. *Xələfov Abuzər.* Heydər Əliyev və Azərbaycanda kitabxana işi. – Bakı 2006.- 312 s.
3. https://525.az/news/167931-heyder-eliyev-musteqil-azerbaycanda-kitabxana-quruculugunun-banisidir
4. https://science.gov.az/ru/news/open/16926